# "GİLƏNAR MÖVSÜMÜ"

## Afət xanımın ilk kitabı barəsində qeydlərim

**Bəri başdan deyim ki, onunla həyatda heç qarşılaşmamışdım. Necə deyərlər, yollarımız kəsişməmişdi və bu kəsişməyən yolumuzun bir nöqtəsində onun imzasına rast gəlmişdim. Dəyərli şair dostum Qəşəm Nəcəfzadə günlərin birində elektron poçtuma şeirlər göndərmişdi və şeirlərə əlavə olaraq iki cümlə yazmışdı. İndiki kimi yadımdadı. Qəşəm yazmışdı ki, "qardaş, bu xanımın şeirləri çox maraqlıdı, mənim xoşuma gəlir, göndərirəm sənə. Sən də bəyənsən, "Ədalət"də çap et".**

Təbii ki, mən də Qəşəmin ismarıcını yerinə yetirdim. Öncə şeirləri oxudum. Gördü ki, ruhuma yaxın bir müəllifin söz dünyasıyla üz-üzə gəlmişəm. Bu da həmin misraları "Ədalət"in oxucularına təqdim etmək üçün məni həvəsləndirdi və belə də etdim. Üstündən xeyli zaman keçdi həmin o "Ədalət"də çıxan şeirlərin. Bugünlərdə isə redaksiyamıza bir xanım təşrif buyurmuşdu. Dəhlizdə qarşılaşdıq. Özünəməxsus bir ərklə dedi ki, mən Afətəm, sizə kitabımı gətirmişəm. Tam səmimi etiraf edim ki, bir anlıq duruxdum. Amma dərhal da onu otağa dəvət edib gətirdiyi kitabı qəbul etdim. O da duruxduğumu hiss etdi. Vəziyyətdən çıxış üçün bildirdi ki, mənim şeirlərim "Ədalət"də çıxıb. Bu söz mənə bəs etdi. Mən Afət xanımı da, onun şeirlirini də xatırladım. Üzrxahlıq edib onunla artıq ruh doğması üçün hal-xoş etdim. Tanışlığımıza, görüşümüzə şad olduğumu dilə gətirdim. Zamandan istifadə edib ədəbiyyatdan, poeziyadan, söz dünyasından danışdıq, fikir bölüşdük.

Afət xanım gedəndən sonra onun mənə bağışladığı kitabın öncə aftoqrafını oxudum. Bilirsiniz niyə? Ona görə ki, mən aftoqraflarda həmişə səmimiyyət axtarmışam. O səmimiyyəti görəndə, duyanda, hiss edəndə müəlliflə onun kitabı arasındakı məsafəni ölçə bilirəm. Hiss edirəm ki, sözlə sözün sahibi bir-birinə nə qədər bağlıdılar, bir-birindən hansı məsafədədilər. Düzünü deyim ki, bu aftoqrafda mənə Afət xanımın hələ "Ədalət"də çap olunan şeirlərdəki səmimiyyətin üst-üstə düşdüyünün şahidi oldum. Elə Qəşəm Nəcəfzadənin kitaba yazdığı ön sözdə mənim hisslərimi bir az da kökləıdi. Kitabda oxuduğum ilk şeir bu oldu:




**Səni itirməkdən**
**qorxdum,**
**sevməkdən də çox.**
**Sənə**
**aldanmaqdan**
**qorxudum,**
**itirməkdən də çox.**
**Yanmaqdan qorxdum**
**kül olmaqdan da çox.**
**Səni məndən məni səndən**
**aldı bu qorxu.**
**Bu boşluğu dolduracaq**
**heç, heç nə yox.**

Maraqlı gəldi bu fikirlər mənə. Elə o maraq da məni növbəti şeirə tərəf apardı.

**Yenə pəncərəmi döydün, yenə də**
**Yenə də çırpıldın bu şüşələrə.**
**Sənin ahlarını mən eşidirəm**
**Deyirsən insafa gəldim, bəlkə də.**

**... Bu otaq səninçün dönər məzara**
**Döymə pəncərəmi açan deyiləm.**
**Hicrindən ölsəm də bu yanan şama**




**Səni aldanmağa qoyan deyiləm!**

Nümunə gətirdiyim bu şeir "Pərvanə" adlandırılıb müəllif tərəfindən. Mən şeiri bir neçə dəfə oxudum. Təkcə odda yanmağın deyil, bütövlükdə kimin və yaxıd nəyinsə pərvanəsi olmağın bütün cizgilərini gözümün önünə gətirdim. Və hardasa müəllifin şamla pərvanə arasında dayanıb ona öz istəyinə çatmaq şansını verməməsinin səbəbini tapmaq, görmək istədim. Məhz həmin o məqamda müəllifin özü köməyimə çatdı. Poetik şəkildə pıçıldadı ki, o pərvanəyə bu yolla deyir ki, əzabdan, iztirabdan, xüsusilə sənə önəm verməyəndən qorunmağın bir yolu var. O da uzaqda durmaqdı. Amma bu Afət xanımın verdiyi hökmdü, pərvanənin çxardığı qərar deyil. Ona görə də "Pərvanə" şeiri adamı düşündürür. Çünki ortada məntiq var, pərvanənin və şairin məntiqi! Biri eşqin atəşində yanmağa tələsir, biri eşqin halal haqqını, halal dəyərini ala bilməməsini, o vüsal yolunun əzabını göstərir.

Mən bu kitabda bir şeirə də rast gəldim. Bəlkə də indi onu dilə gətrməyim doğru deyil. Amma bu şeiri müəllif "1906-ci ildə" adlandırıb və Əbülfət Mədətoğluna ünvanlayıb. Oxucular qarşısında birmənalı şəkildə etiraf edim ki, şeiri bir neçə dəfə oxudum. Böyük Cəfər Cabbarlının "1905-ci ildə" əsərini xatırladım. Doğulduğum yurdu, yəni Tuğ kəndini gözümün önünə gətirdim və sonra yenidən qayıtdım Afət xanımın şeirinə. Ruhumu tərpədən, mənə öz içimizdəki, sapı özümüzdən olan baltaları da xatırlatdı bu şeir. Və bütövlükdə Afət xanımın bu şeiri qələmə alarkən apardığı paralellər, yaratdığı poetik mənzərə məni oxucu kimi məmnun etdi. Gördüm, duydum və əmin oldum ki, müəllif mənim və bütövlükdə torpağını itirən hər kəsin dərdini öz dərdi kimi yaşaya bilir. Ona görə də mən müəllifə təşəkkürümü bildirirəm. Bütövlükdə isə Afət xanıma demək istəyirəm ki, "Gilənar mövsümü" mənə görə uğurlu bir kitabdı. İnşallah bu uğur davamlı olar.

Kitab barsində fikirlərimi yekunlaşdırarkən yenə əlimi "Gilənar mövsümü"nə tərəf uzatdım, yenə qeyri-ixtiyari bir səhəfəni açdım və oxudum.

**Yenə qəzet aldım köşkdən**
**Sənin bürcünü oxudum.**
**Tez-tez qəzet alıram,**
**Sənin gününü, halını**
**əhvalını**
**Əslində inanmadığım**
**Astroloqların proqnozlarından**
**soruşuram.**

Mənə elə gəlir ki, sözə dəyər verən, sözlə baş-başa qalmaq istəyən məhz bu cür fikirlərin sorağındadı. Həm düşünmək üçün, həm də düşündüyünü ovutmaq üçün.

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.-2017.-6 aprel.-S.3.